# Milli Kitabxanada Əli Tudənin anadan olmasının 100 illiyi qeyd olunub





Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin, kitabxananın və Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə görkəmli şair-publisist, Əməkdar incəsənət xadimi Əli Tudənin anadan olmasının 100 illiyi qeyd olunub.

Tədbirdə elm və mədəniyyət xadimləri, ədibin ailə üzvləri və tanınmış ictimaiyyət nümayəndələri iştirak edib.

Milli Kitabxananın direktoru Kərim Tahirov Əli Tudənin Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi kimi 70-dən artıq kitabın müəllifi olduğunu deyib.

Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri, yazıçı-publisist Sayman Aruz Əli Tudənin yaradıcılığından söhbət açıb. Hər zaman onun yaradıcılığını diqqətdə saxlandığını və 100 illiyi münasibətilə Yazıçılar Birliyi tərəfindən medal təsis olunduğunu söyləyib.

İranlı Mühacirlər Cəmiyyəti Yazarlar Birliyinin sədri Tariyel Ümid Əli Tudə barədə canlı xatirələrini danışıb. Onun Cənubi Azərbaycanı təmsil edən şair və yazıçılar arasında ən yüksək zirvələrdən biri olduğunu xatırladıb.
Azərbaycan Demokrat Firqəsinin sədri Rəhim Hüseynzadə çıxışında Əli Tudənin oğlu Natiq Cavadzadənin görünməmiş bir xeyirxahlığa imza atdığını bildirib. Onun atasının irsini bir yerə toplayaraq 20 cildlik seçilmiş əsərlərini çap etdiyini, üstəlik bu nəşrlər barəsində külliyatını yaratdığını dilə gətirib.
AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru Esmira Fuad Əli Tudənin Təbriz filarmoniyasını yaratmasından, bir ömrə sığmayan əsərlər yazmasından bəhs edib.
Balaş Azəroğlunun oğlu Etibar Azəroğlu, Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin İrs komissiyasının sədri Sona Xəyal, Nizamişünas Qasım Cahaninin qızı Sədaqət Cahani, şair-publisist Fəxrəddin Meydanlı və digərləri Əli Tudənin həyat və yaradıcılığından bəhs edərək xatirələrini bölüşüblər.
Tədbirdə şairin şeirləri səsləndirilib. Həmçinin Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan görkəmli Azərbaycan şairi Əli Tudəyə həsr olunmuş “Əli Tudə-100” adlı elektron məlumat bazasının təqdimatı olub.

**Azerbaycan-ruznamesi.org**